# Onu uşaqlara sevdirməliyik

***Hər bir ailəyə xoşbəxtlik bəxş edir körpə gəlişi...***
***Ürəklərdə nur, dodaqlarda təbəssümə dönür körpə gülüşü!..***
***Bir mahnı kimi qəlbləri ovsunlayır körpə qığıltısı...***

**Günlərin birində bu körpələrin dilindən nəğmələr eşidəndə, şeirlər dinləyəndə, nağıllara qulaq asanda fərəhimizdən yerə-göyə sığmırıq. Doğrusu, körpə balalarımızın dillərində səslənən şeirlər isə onları bizə daha çox sevdirir, mehribanlaşdırır...**

Gül üzlü övladlarımızın şirin dillərinə yatan, qəlblərinə yol tapan şeirlər yazmaq çox çətin və məsuliyyətlidir.

Bu məsuliyyətin böyüklüyünü həmişə hiss edən Xalq şairimiz Səməd Vurğun uşaqlar üçün şeir yazmaqdan söz düşəndə Abdulla Şaiqin adını çəkir, ondan uşaqlar üçün şeir, nağıl, hekayə, pyes yazmağı xahiş etmələrini söyləyərmiş. Axı, A. Şaiqin yaradıcılığında Ana Vətənə, elobaya bağlılıq, təbiətə vurğunluq, baba-nənələrə məhəbbət, hazırcavablıq, qurub-yaradan insanları sevmək kimi hisslər aşılanır.

### *Azərbaycan uşaq ədəbiyyatının yaşı*

qədimdir. İbtidai insanların həyat tərzi, əmək vərdişləri, təsərrufat işləri şifahi xalq ədəbiyyatımızda genişliyi ilə öz əksini tapmışdır. O cümlədən, şifahi xalq ədəbiyyatının kiçik, lirik və epik növlərinə daxil olan el oyunları, lətifələr, laylalar, uşaq nəğmələri, mövsüm nəğmələri, nağıllar kimi janrlarda uşaqların bütün əhval-ruhiyyəsi bədii çalarlarla verilmişdir.

Məsələn, "Uşaq nəğmələri" nin müəllifi uşaqlardır.

Hələ məktəbə getməyən uşaqlar özləri üçün maraqlı oyunlar tapır, əyləncə axtarır, özlərinə məxsus sözlər düzəldir, hamının zövqünü oxşayan səhnəciklər hazırlayırlar:

**Əlimi bıçaq kəsibdi,**
**Dəstə bıçaq kəsibdi.**
**Yağ gətirin yağlayaq...**

Yazılı ədəbiyyatımızın qədim və orta əsrlər dövründə böyük alim və mütəfəkkir şairlər Əbul-Ula Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Əssar Təbrizi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli öz əsərlərində gələcək nəslin nümayəndələri olan uşaqlar üçün maraqlı əsərlər yaratmışlar.

### *XIX əsrdə*

uşaq ədəbiyyatı Abbasqulu Ağa Bakıxanovun, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin mənzum hekayələri və təmsilləri, satirik şeirləri və mənzum məktubları ilə öz inkişaf yolunu keçmişdir. Bir çox öyüd və mənzum hekayələrin müəllifi olan S. Ə. Şirvani oğluna müraciətində gəncliyi həmişə düz olmağa, əyri işlərdən çəkinməyə səsləyirdi:

**Ey oğul, olma çox da sadəzəmir,**
**Ta sənə mərdum eyləyə təzvir.**
**Xəlq olub məkrü hiylэyə kamil,**
**Sadəlövh olma sən də, ey qafil.**
**Zirək ol, yaxşıya yaman olma,**
**Xalqdan çox da bədgüman olma.**

XX əsrin əvvəllərindən başlayaraq uşaq ədəbiyyatı və uşaq mətbuatı öz inkişaf yoluna çıxmışdır. Böyük ədib Cəlil Məmmədquluzadənin hekayələri, Mirzə Ələkbər Sabirin mənzum hekayələri, şərqiləri, təmsilləri, Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ı, Abbas Səhhətin şeirləri, pyesləri uşaqların, gənclərin əhval-ruhiyyəsini, gələcək talelərini əks etdirmişdir.

Azərbaycan uşaq ədəbiyyatının hansı mərhələsində yaşamasından asılı olmayaraq elə ədiblər var ki, onlar bədii əsərləri ilə uşaqların qəlbində əbədi yer tutmuşlar.

Belə ədiblərdən biri və deyərdim ki, birincisi Abdulla Şaiq Talıbzadədir.

**(ardı 11-ci səhifədə)**

# Onu uşaqlara sevdirməliyik

(əvvəli 10-cu səhifədə)

### *100 il bundan əvvəl*

qələmə aldığı və nəşr etdirdiyi "Uşaq və dovşan", "Yetim cücə", "Xoruz", "Keçi", "Dovşan", "Payız nəğməsi", "Cütçü" şeirləri, "Yaxşı arxa", "Tülkü həccə gedir" mənzum nağılları, "Qoçpolad" poeması, "Murad", "Cücənin qəzəbi", "Şələquyruq" hekayələri, "Tülkü və dəvə", "Tülkü və xoruz", "Arı və eşşək", "Hacıleylək və sərçə" təmsilləri, "Gözəl bahar", "Danışan kukla", "Eloğlu", "Bir saatlıq xəlifə" pyesləri bu gün də uşaqlar tərəfindən eyni həvəslə oxunur. Mən, eyni zamanda vurğulamaq istərdim ki, A.Şaiq yaradıcılığı bütün əsrlərdə, bütün fəsillərdə öz təravətini qoruyub saxlayan, solmayan çəmənzarlıqdır:

**Uşaq:**

**Dovşan, dovşan, a dovşan,**
**Qaçma, dayan, a dovşan.**
**Qaçma səni sevəndən,**
**Can kimi istəyəndən.**

**Dovşan:**

**Dura bilmərəm, qardaş,**
**Yanında var alabaş.**
**Xəbərdaram işindən,**
**Qurtarmaram dişindən.**

Necə də sadə, şirin, qısa və lokonikdir!

Azərbaycan uşaq ədəbiyyatının inkişafında Mirmehdi Seyidzadənin, Mirvarid Dilbazinin, Mikayıl Rzaquluzadənin, Rəsul Rzanın, Əyyub Abbasovun, Zeynal Cabbarzadənin, Qılman İlkinin xidmətləri çox olmuşdur.

Mən müasir uşaq ədəbiyyatı haqqında ətraflı məlumat vermək istəyirəm. Çünki, ədəbiyyatımızın bütün sahələri kimi uşaq ədəbiyyatı ilə məşğul olan, gözəl, qəlboxşayan əsərlər yaradan ədiblərimiz çoxdur. Bu gün ibtidai siniflərimizin dərsliklərində öz əsərləri ilə məktəblilərin sevimlisinə çevrilən İlyas Tapdıq, Teymur Elçin, Xanımana Əlibəyli, Tofiq Mahmud, Məmməd Aslan, Zahid Xəlil, Xalidə Hasilova, Əzizə Əhmədova, Əli Səmədov, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Qəşəm Nəcəfzadə, Əlmdar Quluzadə uşaqlar üçün bir neçə kitab nəşr etdirmişlər.

### *Uzun illər*

"Göyərçin" jurnalına baş redaktorluq etmiş Tofiq Mahmudun şeirlərində uşaqlara "Bu torpağı tanı, sev!" şüarı ilə müraciət olunur:

**Balaca dost, indidən**
**Bu torpağı tanı, sev!**
**Hələlik boy atırsan,**
**Bapbalaca çinarsan,**
**Ucalarsan dağ kimi**
**Bu torpağı tanısan!**

Bu gün T. Mahmudun baş redaktoru olduğu "Göyərçin" jurnalına rəhbərlik edən Rafiq Yusifoğlu uşaqlar tərəfindən ən çox oxunan ədiblərimizdəndir. R. Yusifoğlunun şeirləri ilə birgə duzlu və məzmunlu hekayələri, dünya uşaq ədəbiyyatından etdiyi tərcümələri ən qiymətli incilərdəndir.

R. Yusifoğlunun şeirlərindəki bahar, gül, çiçək, günəş, həyətdə boy atan gül üzlü balalardır:

**Bahar məktub yazıbdır,**
**Xətti necə qəşəngdir.**
**Bu məktubun hər sözü**
**Hər kəlməsi çiçəkdir.**

Yaradıcılığına və naşirliyinə böyük hörmət bəslədiyim Qəşəm İsabəyli öz ömrünü bütövlükdə uşaq ədəbiyyatına sərf etmişdir.

### *Bir-birindən maraqlı olan şeirlər*

kitabları ilə yanaşı, hekayələr kitabını da gül balalara hədiyyə etmişdir. Hətta, Q. İsabəyli "Cik-cik" adlı bədii-ensiklopedik aylıq uşaq qəzetinin də təsisçisi və baş redaktorudur. Onun direktoru olduğu "Şirvannəşr" də uşaqlar üçün müxtəlif janrlarda onlarla kitab nəşr olunmuşdur. Şairin "Elnur, Əkil və onların başına gələnlər" adlı kitabı maraqlı, ibrətamiz və əxlaqi keyfiyyəti ilə zəngin uşaq ədəbiyyatı nümunəsidir. Şirin bir nağıl dili ilə qələmə alınmış bu əsər məktəbli balalar üçün sinifdənxaric oxu kimi çox qiymətlidir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyinin təsis etdiyi "Qızıl kəlmə" mükafatının laureatı Zahid Xəlilin uşaq ədəbiyyatı haqqındakı dəyərli fikirləri, bədii yazıları, nəşr etdirdiyi kitablar böyük maraqla qarşılanmışdır.

### *Tanınmış yazıçı*

və şairlərdən Bayram İskəndərli, Əlmdar Quluzadə, Sevinc Nuruqızı, Budaq Təhməz, Muxtar Qasımzadə, Mina Rəşid uşaqlar üçün



yazdıqları şeirlər, nəşr etdirdikləri kitablar maraqlı mövzuları ilə diqqəti cəlb edir. Muxtar Qasımzadənin "Uşaqlar və günəş", "Günəbaxanlar", "Yer şarımız", "Günəş çəkə bilmirəm", "Paxıl arılar", "Suya girəndə" kimi şeirlərində danışan uşaqlardır - Lalədir, Əzizdir, Nərgizdir, Səkinədir, Gülşaddır, Mahirdir...

**Suya girəndə**
**Atam danlayır.**
**Qolumdan çəkib**
**Anam danlayır:**

**Ay səni, Lalə**
**İslandın yenə.**
**Soyuq dəyəcək**
**İndicə sənə.**

**Çayda balıqlar**
**Çimir, hey çimir.**
**Mətəl qalmışam,**
**Bəs niyə soyuq**
**Onlara dəymir?**

### *Qədim tarixə malik olan Azərbaycan*

uşaq ədəbiyyatı haqqında bir qəzet məqaləsində ətraflı danışmaq qeyri-mümkündür. Mənim bu yazıda məqsədim uşaq ədəbiyyatının az olmasından gileylənənləri bu işdə böyük əmək sərf edən yaradıcı şəxsiyyətlərlə tanış etməkdir. Məktəblərimizdə və məktəbəqədər təhsil müəssisələrində çalışan pedoqoji işçilərin çoxu tədris etdikləri bədii əsərlərin müəlliflərinin həyatı və yaradıcılıqları haqqında şagirdlərə məlumat vermirlər. Elə anlar olur ki, şagirdlər A. Şaiqin üçüncü və ya dördüncü şeirlərini öyrəndikləri halda, əvvəlki şeirlərinin adlarını belə təkrar edə bilmirlər. Və məktəblilər "Xoruz", "Keçi", "Uşaq və dovşan" şeirlərini əzbər söylədikləri halda müəllifinin kim olduğunu bilmirlər. Belə xoşagəlməz hallara səbəb tərbiyəçilərin və sinif müəllimlərinin özlərinin uşaq ədəbiyyatına və onun müəlliflərinə qarşı soyuq münasibətləridir.

### *İbtidai siniflərimizdə*

sinifdənxaric dərslərin saatlarında çox vaxt dərsliklərdəki mövzuların təkrarından istifadə olunur. Bu da şagirdlərin əlavə bilik qazanmalarına öz mənfi təsirini göstərir. Müəllimlərin və tərbiyəçilərin çoxu uşaqlar üçün nəşr olunan "Göyərçin", "Günəş" (əvvəlki "Pioner"), "Qaranquş", "Göy qurşağı", "Savalan" (əvvəlki "Azərbaycan pioneri"), "Cik-cik" kimi qəzet və jurnalların nəşrindən xəbərləri yoxdur. Son illər "Ədəbiyyat", "Kaspi", "Ədalət" qəzetləri, "Azərbaycan", "Ulduz" jurnalları öz saylarında uşaq ədəbiyyatı nümunələrinə geniş yer ayırırlar.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamına əsasən tanınmış ədiblərin əsərləri, "Uşaq ensiklopediyası" seriyasından olan kitablar məktəb kitabxanalarına hədiyyə edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin tərtib etdiyi "Azərbaycan Uşaq Ədəbiyyatı antologiyası", Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə çap olunan iki cildli "Azərbaycan Uşaq Ədəbiyyatı antologiyası", Təhsil Nazirliyinin əmri ilə təsdiq edilmiş "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramına dair Müntəxabat" dərsliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən hər il nəşr edilən "Şeirlər və poemalar", "Pyeslər", "Təmsillər" kimi toplular uşaq ədəbiyyatının təbliğində müstəsna rol oynayırlar. Bu qiymətli kitablar müəllimlər və kitabxanaçılar tərəfindən məktəblilər arasında tanıdılmalıdır. Disputlar, kitab müzakirələri, bədii qiraətlər keçirilməli, uşaqlar üçün yazan müəlliflərlə görüşlər müntəzəm olaraq təşkil edilməlidir.

### *Son vaxtlar*

uşaq ədəbiyyatının respublikada və respublikadan kənarda təbliğində çox mühüm tədbirlər həyata keçirilir. Bu ilin oktyabr ayının 18-19-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında VI Beynəlxalq Uşaq və Gənclik Ədəbiyyatı Simpoziumu keçirildi. "Uşaq musiqisi, uşaq nəğmələri, laylaları və bəstələnmiş uşaq şeirləri" mövzusuna həsr olunmuş simpozium çox maraqlı və rəngarəng keçdi. Kitabxananın foyesində təşkil olunmuş və nümayiş etdirilən uşaq ədəbiyyatı nəşrlərindən ibarət sərgi ilə tanışlıq tədbir iştirakçılarında xoş təəssurat və əhval-ruhiyyə yaratdı, onların bu sahəyə maraqlarını daha da artırdı. Çox istəyərdik ki, mədəniyyət və təhsil müəssisələrimizdə uşaq ədəbiyyatını təbliğ edən belə tədbirlər müntəzəm olaraq təşkil edilsin.

Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firudin bəy Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanası uşaq ədəbiyyatının təbliğində daha səmərəli işlər həyata keçirir. Kitabxananın 2006-cı ildən nəşr olunan, 32 səhifəlik "Göy qurşağı" jurnalının hər sayında əlamətdar tarixi günlər, bayramlar, görkəmli şəxsiyyətlər, təhsil müəssisələri haqqında məlumatlar, uşaqların qələmə aldıqları şeir və hekayələr, çəkdikləri rəsmlər dərc olunur.

### *"Göy qurşağı"*

jurnalında həm də kitabxanaya daxil olan yeni kitablar haqqında oxuculara müntəzəm olaraq məlumat verilir. Uşaqların intellektual səviyyələrinin artmasına xidmət edən məntiqi suallarla zəngin səhifə və rubrikalar jurnalı daha da maraqlı edir.

F. Köçərli adına uşaq kitabxanasının nəcib təşəbbüsünü, işgüzar fəaliyyətini məktəb kitabxanalarının hər biri öz işlərində tədbiq etsəydilər yaxşı olardı.

"Damla" nəşriyyatı da bu gün uşaq ədəbiyyatının təbliğində fəal iştirak edir.

**Sonda, bir müəllim və uşaqlar üçün yazılan kitabların müəllifi kimi çox istərdim ki, hər birimiz uşaq ədəbiyyatını ürəkdən sevək, oxuyaq,geniş təbliğ edək. Qoy həmişə qəlbən sevdiyimiz gülüzlü, şirindilli, kövrək, çiçəklər qədər ətirli balalarımızın söylədikləri nağıllar, şeirlər, şən nəğmələr olsun!**

**İbrahim Yusifoğlu**
**AYB-nin üzvü,**
**Prezident**
**mükafatçısı**





2019.-S.10-11.